# Ombudsman "İnsan Hüquqları Aylığı"nın elan olunması ilə bağlı müraciət yayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) "İnsan Hüquqları Aylığı"nın elan olunması ilə bağlı müraciət yayıb. Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Bildirilib ki, Azərbaycan ombudsmanı tərəfindən ənənəvi olaraq hər il mayın 18-dən iyunun 18-dək ölkədə "İnsan Hüquqları Aylığı" elan edilir. Bu isə sosial-hüquqi statusundan asılı olmayaraq, hər kəsin - şəhid ailələrinin, müharibə iştirakçılarının, əlilliyi olan şəxslərin, uşaqların, ahılların, qaçqınların, keçmiş məcburi köçkünlərin, miqrantların və əhalinin digər həssas qruplarının hüquqlarının müdafiəsi və təbliği sahəsində fəaliyyəti gücləndirmək, əldə olunan uğurlar barədə ictimaiyyəti məlumatlandırmaq, qarşıda duran vəzifələri müəyyən etmək, cəmiyyətdə hüquq düşüncəsini və hüquq mədəniyyətini inkişaf etdirmək, ayrı-seçkiliyə, korrupsiyaya, zorakılığa, zərərli vərdişlərə qarşı mübarizənin zəruriliyini diqqətə çatdırmaq məqsədinə xidmət edir.

Azərbaycan.- 2023.- 19 may.- S.4.